**Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin satışı və saxlanılması üçün nəzərdə tutulan sahənin (anbarın, satış mərkəzinin) fitosanitar vəziyyəti barədə rəy verilməsi üçün tələb olunan sənədlər**

1. **Müraciət ərizəsi**;

2. Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin saxlanılması üçün nəzərdə tutulan anbarın (sahənin) ərizəçinin mülkiyyətində və ya qanuni istifadəsində olmasını təsdiq edən sənədin surəti (daşınmaz əmlakın dövlət reyestrindən **çıxarışın surəti** və ya **icarə müqaviləsinin surəti** (əgər 2 fiziki şəxs arasında olarsa - notarial təsdiqlə);

3. Kommersiya hüquqi şəxslərinin **dövlət reyestrindən çıxarışın surəti** (dövlət qeydiyyatı haqqında şəhadətnamə)

4. Anbara baxış zamanı şirkət tərəfindən onu təmsil edən nümayəndə iştirak edəcəyi təqdirdə, ona verilən **daxili etibarnamə**;

5. **Nizamnamə** (MMC-nin öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi və qüvvədə olan digər qanunvericilik aktlarına uyğun həyata keçirməsi barədə sənəd);

6. Ərizəçinin **şəxsiyyət vəsiqəsinin surəti;**

7. **VÖEN** (Vergi ödəyicilərinin vahid qeydiyyatına dair sənəd);

8. Anbarda işləyən **işçilərin sağlamlıq vəziyyəti haqqında arayış**;

9. **Dezinfeksiya işlərini aparan şirkətlə müqavilənin surəti** (əgər müəssisənin özündə dezinfeksiyaedici vasitələr (çiləyici) və maddələr (dezinfektant) olmadığı təqdirdə).

**Qeyd 1:** Pestisidlərin saxlanılması nəzərdə tutulan anbarlara münasibətdə əlavə olaraq aşağıdakı sənədlər də tələb olunur:

1. **Toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi fəaliyyət növü üzrə xüsusi razılığa (lisenziyaya) malik şəxslərlə bağlanılmış müqavilənin surəti;**

**1.1 Sözügedən lisenziyanın surəti;**

2. **Təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınması fəaliyyət növü üzrə xüsusi razılığa (lisenziyaya) malik şəxslərlə bağlanılmış müqavilənin surəti** (ərizəçinin xüsusi nəqliyyat vasitəsi olmadığı hallarda);

2.1 **Sözügedən lisenziyanın surəti.**

**Qeyd 2:** Müraciət ərizəsi sənədlər toplusu ilə birlikdə elektron qaydada info@afsa.gov.az ünvanına göndərilir.